# Universitet tələbələrinin siyasi vətənpərvərlik tərbiyəsində hansı problemlər üzə çıxdı - Prezident tövsiyələri...

***Rüfət Quliyev:** ”Gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması isə mənsub olduğu xalqın rifahının yüksəlməsi, ölkənin çiçəklənməsi deməkdir”*

**Bu gün Azərbaycanda həyata keçirilən gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsinə çevrilib. Gənclərin vətənpərvərlik tərbiyəsinin, milli şüurunun inkişafı, mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması, məşğulluğunun artırılması, asudə vaxtlarının səmərəli keçirilməsi və digər məsələlərin həlli üçün dövlət proqramları qəbul edilib, Prezident fərmanı və sərəncamları imzalanıb, beynəlxalq hüquq prinsiplərinə əsaslanan qanunvericilik bazası yaradılıb.**

Bilavasitə dövlətin diqqət və qayğısı nəticəsində Azərbaycan gəncliyi siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır, beynəlxalq elmi simpoziumlarda, idman yarışlarında Azərbaycanı layiqincə təmsil edir, üçrəngli bayrağını böyük iftixar hissilə yüksəklərə qaldırır.

Gənclərin sağlam, vətənpərvərlik ruhunda böyüməsi dövlət gənclər siyasətinin ən mühüm istiqamətlərindəndir.

Azərbaycanda bütün dövrlərdə gənclərin vətənpərvər, milli ruhda böyüdülməsi, tərbiyə olunması aktual olub və günümüzdə də bu məsələ öz əhəmiyyətini qoruyub saxlayır. Çünki dövlətin gənclər siyasətinin təməlində məhz qeyd etdiyimiz məqam dayanır.

Noyabrın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Konqres Mərkəzində Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə keçirilən mərasimdə çıxışı zamanı da bu məsələyə toxunub. Prezident qeyd edib ki, gənclər milli ruhda, ənənəvi dəyərlər əsasında tərbiyə almalıdırlar: "Vətənpərvər olmalıdırlar. Bu olmasa, ölkəmizin gələcəyi olmayacaq. Bu olmasa, nə vaxtsa yenə də kiminsə təsiri altına düşüb yenə də müstəqillik arzuları ilə yaşayacağıq. Ona görə gənclərdə vətənpərvərlik çox güclü olmalıdır. Gənclər milli ruhda, vətənpərvərlik ruhunda, ənənəvi dəyərlər əsasında tərbiyə almalıdırlar. Bax, belə gənclər ölkəmizi gələcəyə inamla aparacaq. Hesab edirəm ki, bugünkü gənclərin mütləq əksəriyyəti bu meyarlara cavab verir - bilikli, savadlı, Vətənə bağlı, vətənpərvər və dünyaya açıq. Elə olmalıdır ki, Azərbaycanın dövlət müstəqilliyi güclənsin".

Prezident İlham Əliyevin Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə keçirilən mərasimdə çıxışı tələbələrin vətənpərvərlik tərbiyəsində nə kimi rol oynayacaq?

Millət vəkili Rüfət Quliyev "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, gənclər hər bir xalqın ayıq-sayıq və ən itigörən gözü, ümumiyyətlə, tarixin bütün dövrlərində inkişafın hərəkətverici qüvvəsi olub. Sağlam və intellektual gənc nəslin yetişdirilməsi dövlətin, xalqın əsas strateji hədəflərindən sayılıb. Gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması isə mənsub olduğu xalqın rifahının yüksəlməsi, ölkənin çiçəklənməsi deməkdir.

R.Quliyev bildirdi ki, Prezident hər zaman gənclərlə görüşəndə onların vətənpərvər, milli ruhda böyüməsinin vacibliyi barədə nitq söyləyir: "Ölkə başçısının BDU-nun 100 illik yubileyi ilə bağlı keçirilən mərasimdə gənclərlə bağlı çıxışının gənclərin vətənpərvər ruhda böyüməsində xüsusi rolu olacaq".



*”Dövlətimizin gənclərə göstərdiyi qayğı onların maddi və mənəvi problemlərinin aradan qaldırılmasına təkan verir”*

Həmsöhbətimiz onu da əlavə etdi ki, gənc nəslin sağlam və vətənpərvər ruhda böyüməsi, intellektual inkişafı hər bir dövlət və cəmiyyət üçün strateji əhəmiyyətli bir məsələdir: "Nəzərə almaq lazımdır ki, Azərbaycan əhalisinin təxminən 43 faizini yaşı 14-29 olan gənclər təşkil edir. Bunun özü həm çox böyük bir göstərici, həm də ölkənin güclü inkişaf enerjisi olduğunu sübut edən məqamlardan biridir. Azərbaycan dövləti haqlı olaraq bu güclü potensialı səfərbər etmək, gənclərin imkanlarından bəhrələnmək, həm də gənclərin dövlətin və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının təmin edilməsi istiqamətində bütün mümkün addımları atmaqdadır. Gənclərin hərtərəfli inkişafı ölkənin sosial-iqtisadi, elmi və mədəni inkişafı ilə sıx əlaqədədir, onun qlobal rəqabətə davamlılığının, milli təhlükəsizliyinin vacib şərtlərindəndir",

Millət vəkilinin sözlərinə görə, dövlət proqramlarında hərbi-vətənpərvərlik tərbiyəsi işinə xüsusi yer ayrılıb. Onun sözlərinə görə, bu işlə bilavasitə məşğul olanların üzərinə çox böyük məsuliyyət düşür: "Ölkəmizdə fəaliyyət göstərən ayrı-ayrı təşkilatların əsas məqsədi böyüməkdə olan gənc nəsli bu işə cəlb etməkdir. Yəni gənc nəslin hərbi-vətənpərvərlik tərbiyəsi ölkəmizin siyasətinin əsasını təşkil edir. Mən sevinirəm ki, respublikamızda müasir tələblərə cavab verən idman qurğuları tikilərək gənclərin istifadəsinə verilib.

Bu idman ocaqları gənc nəslin sağlamlığının qorunmasına xidmət edir. Azərbaycan Ordusunun əsasını təşkil edən isə, şübhəsiz ki, gənclərdir. Onların fiziki sağlamlığı Vətənimizin keşiyində dayanmağa imkan yaradır. Qeyd edim ki, gənclərin orduya hazırlığı istiqamətində aparılan işlər alqışalayiqdir. Bu səpkidə keçirilən tədbirlər ictimaiyyət tərəfindən çox böyük razılıqla qarşılanır. Dövlətimizin gənclərə göstərdiyi qayğı onların maddi və mənəvi problemlərinin aradan qaldırılmasına təkan verir. Bütün bunlar isə gənc nəslin vətənpərvərlik tərbiyəsinə müsbət təsir göstərir.

***Günel CƏLİLOVA***